Bakı xəbər.-2022.-22 fevral.-S.11.

Azərbaycan Respublikasının
Medianın İnkişafı Agentliyi

**Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği: dövlət müstəqilliyimizin bərpasının 30-cu ili - Azərbaycan dövlətçiliyi müasir mərhələdə**

**Elm cəmiyyətin, dövlətin dayağıdır, istinad nöqtəsidir. Elmin inkişafı Azərbaycanda dövlət siyasətinin mühüm prioritetlərindən biridir. Uzun illər sovet elmi konsepsiyası əsasında irəliləyən Azərbaycan elmi, alimi 30 ildən artıqdır ki, müstəqildir. Lakin çox təəssüflər olsun ki, hələ də elmimizi sovet elmi konsepsiyası arxasınca dartıb aparanlar var. Halbuki, o konsepsiya çoxdan iflasa uğrayıb. Bəziləri isə hələ də bu konsepsiyanın mövcudluğunu zənn edir və sovet metodologiyasını yaşadır.**

# Azərbaycan elminin yeni inkişaf konsepsiyası daha qaçılmaz oldu...

Sözsüz ki, bu yanlış tendensiyadır. Azərbaycan elmi müasir Azərbaycan dövlətinin marqlarına cavab verən istiqamətdə irəliləməlidir.

### Elm cəmiyyətin bir hissəsi olmalıdır...

İndiyə qədər Azərbaycan elminin inkişaf etdirilməsi məqsədilə çox sənədlər hazırlanıb, prezidentintin sərəncamları, fərmanları, xüsusi qayğı siyasəti olub, bu gün də o qayğı siyasəti davam edir. Məsələn, 2016-cı ildə "Elm haqqında" Qanun qəbul edilib. Qanun elmi fəaliyyətin təşkili, idarə edilməsi və inkişafı sahəsində dövlət siyasətinin əsas prinsiplərini, elmin və elmi-innovasiya fəaliyyətinin məqsədlərini, elmi fəaliyyət subyektlərinin hüquq və vəzifələrini, elmin maliyyələşdirilməsi mexanizmlərini, elmi nailiyyətlərin stimullaşdırılması və onlardan istifadənin təşkilati-hüquqi əsaslarını müəyyən edir. 2009-cu ildə "Azərbaycan Respublikasında 2009-2015-ci illərdə elmin inkişafı üzrə Milli Strategiya"nın və "Azərbaycan Respublikasında 2009-2015-ci illərdə elmin inkişafı üzrə Milli Strategiyanın həyata keçirilməsi ilə bağlı Dövlət Proqramı" təsdiq edilib. Proqramın məqsədi Azərbaycan elminin strukturunu və tərkibini ölkənin mövcud və perspektiv tələbatları baxımından müəyyən etmək, ölkədə elmin dünya elmi, texnikası və texnologiyalarının prioritet istiqamətlərinə uyğun təşkilini təmin etmək, eləcə də elmin iqtisadi inkişafında rolunu və elm sahəsində mövcud kadr potensialını artırmaqdır. Bundan əlavə, 2009-cu ildə Azərbaycan Prezidenti yanında Elmin İnkişafı Fondu yaradılıb.

Alimlər deyir ki, elm cəmiyyətin bir hissəsi olmalıdır, bu səbəbdən elm cəmiyyətə açıq olmalıdır. Azərbaycan elminin qarşısında duran mühüm vəzifələrdən biri bütövlükdə cəmiyyətin, xalqın elmi-intellektual potensialının toparlanmasına və məqsədəuyğun surətdə yönəldilməsinə



nail olmaqdır. Bu baxımdan ölkəmizdə də elmin inkişafı, iqtisadiyyatın və istehsal prosesinin elmi əsaslar üzərində qurulması dövlət siyasətinin prioritet istiqaməti kimi müəyyən edilir. Azərbaycan Prezidentinin 2012-ci il 29 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan 2020: Gələcəyə Baxış" inkişaf konsepsiyasında uzunmüddətli davamlı iqtisadi inkişafı təmin etmək, "bilik iqtisadiyyatı"nı formalaşdırmaq, elm tutumlu texnologiya, məhsul (işlər, xidmətlər) yaradılmasını sürətləndirmək məqsədilə innovasiya fəaliyyətinin genişləndirilməsi əsas hədəflərdən biri kimi götürülüb. Dövlət səviyyəsində həyata keçirilən strategiyanın əsas prioritetlərindən biri bilik iqtisadiyyatının formalaşdırılması, təhsil, elm və innovasiya arasında səmərəli əlaqələrin yaradılmasıdır. Azərbaycanda son 10-15 ildə həyata keçirilən siyasət nəticəsində sosial inkişaf göstəriciləri əhəmiyyətli dərəcədə yüksəlib. Ekspertlər qeyd edir ki, bu, Prezident İlham Əliyev tərəfindən ölkəmizdə elmin inkişafı, elmi-texniki potensialın qorunub saxlanılması, modernləşdirilməsi, elm və təhsil sahəsində yüksək ixtisaslı kadrların hazırlanması, onlara daim qayğı göstərilməsi, cəmiyyətdə alimlərin, elm və təhsil işçilərinin nüfuzunun artırılması və Azərbaycanda alınmış elmi nəticələrin xaricdə tanıdılması sahəsində bir sıra mühüm qərarlar qəbul edilib həyata keçirilməsi istiqamətində görülən işlərin nəticəsidir. Elm və təhsilin inkişafına dövlət səviyyəsində göstərilən bu qayğı, əslində, dövlətçiliyin möhkəmləndirilməsi və xalqın milli-mədəni tərəqqisinə və rifah halının yüksəldilməsinə xidmət edən siyasətin tərkib hissəsi kimi qiymətləndirilməlidir.

### Azərbaycan elmini müasir mərhələdə necə inkişaf etdirmək olar?

Alimlər özləri deyirlər ki, elm sahəsində köklü islahatlara ehtiyac var və mütləq şəkildə elmin inkişaf konsepsiyası hazırlanmalıdı. Alimlərin sözlərinə görə, indiyə qədər mövcud olan sənədlərin icrasında problemin yaranmasının kökündə birbaşa köhnə model dayandır ki, o da bunların tətbiqinə imkan vermir. Əksər mütəxəssislər deyir ki, elmin idarəolunması mexanizmləri, siyasəti dəyişərsə müasir Azərbaycan elmini inkişaf etdirmək olar. Təbii ki, elmin inkişaf konsepsiyasının hazırlanması da öz yerində.

### "Azərbaycan elmində reformalar labüddür..."

Azərbaycan Tibb Universitetinin I cərrahi xəstəliklər kafedrasının müdiri, AMEA-nın müxbir üzvü, professor Nuru Bayramov elmi nəşrlərin bazasının yaradılmasını, elmi işlərin qeydiyyat bazasının yaradılmasını, elmi tədqiat metodları və avadanlıqları üzrə bazanın yaradılmasını, prioritet sahələr üzrə multidisiplinar mərkəzlərin yaradılmasını təklif edib. Bütün təkliflərini əsaslandıran elm xadiminin qeydlərindən aydın görmək olar ki, elmi bu şəkildə xias etmək və rels üzərinə qoymaq olar. "Təkliflər və tövsiyələr çoxdur və sayı artacaqdır. Ən önəmli məsələ, bunları necə həyata keçirməkdir. Hər bir məsələ üzrə təcrübəli, beynəlxalq əlaqəsi olan və gənclərin çoxluq təşkil etdiyi işçi qrupları yaradıla bilər. Bu işçi qrupları, araşdırmalar apararaq ilkin layihələr hazırlayır, elmi ictimayətin müzakirəsinə çıxarır, əlavə təkliflər dəyərləndirilir və son layihə qəbul olunur. Azərbaycan elmində reformalar labüddür, mümkündür və perispektivlidir"- deyə N.Bayramov vurğulayıb.

***İradə SARIYEVA***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**